# Zaqatala: sosial həyat yaxşı olanda işlər də rəvan gedir

Respublikamızın bütün regionlarında sosial-iqtisadi həyatın daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Zaqatala rayonunun timsalında bunu aydın görürük. Bu günlərdə Zaqatalada olanda gənclərlə, ağsaqqal və ağbirçəklərlə, veteranlarla söhbətlərimdən öyrəndim ki, zaqatalalılar ölkəmizin beynəlxalq aləmdə böyük nüfuz, qüdrət və güc sahibi olmasından böyük fərəh keçirirlər. Rayon icra hakimiyyəti başçısının sosial iqtisadiyyat məsələləri üzrə müavini Tofiq Əhmədov bizim bu barədəki təəssüratlarımıza qüvvət olaraq bildirdi ki, bütün bunların yeganə səbəbi ölkədə, o cümlədən rayonda əhalinin sosial həyatının daha da yaxşılaşmasıdır. Bu isə bütün işlərin rəvanlığına təkan verən güclü stimuldur. Tofiq müəllim rayonda sosial-iqtisadi məsələlərin tənzimlənməsini aşağıdakı konkret faktlarla izah etdi. Rayonda orta aylıq əmək haqqı və orta aylıq pensiyanın məbləğində artım müşahidə edilmişdir. Təkcə bu ilin ötən dövründə 4280 nəfərə sosial müavinət, 371 nəfərə Prezident təqaüdü, 2017 ailənin 8651 üzvünə ünvanlı sosial yardım verilmiş, 216 nəfər tək-kimsəsiz qocalara xidmət göstərilmişdir.




Əhalinin əsas dolanışıq sahəsi olan kənd təsərrüfatının inkişafına dövlətin diqqət və qayğısı daim ön planda saxlanılır. Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi bu ilin ötən dövründə də davam etdirilmişdir.

Sosial həyatın mühüm istiqamətlərindən olan ekoloji məsələlərə diqqət yetirilməsi, əkin sahələrinin, yaşayış məntəqələrinin sel sularından mühafizəsi, əkinlərin suvarma suyu, əhalinin içməli su ilə bol təminatına nail olunmuşdur. Yol kənarlarında olmaqla, inzibati ərazilərdə 89,3 min ədəd ağac əkilmiş, 112 hektar sahədə mədəni meşə əkininə xidmət göstərilmiş, 35 hektar sahədə isə mədəni meşə əkini aparılmışdır.

Torpaqların sel sularından mühafizə edilməsi, suvarma şəbəkəsinin təmiri və əhatəsinin genişləndirilməsi, suvarma suyundan səmərəli istifadə edilməsinə diqqət artırılmışdır. Ölkə Prezidentinin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 29 yanvar 2014-cü il tarixli Sərəncamının icrası olaraq Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən rayonda 18 ədəd subartezian quyusu qazılmışdır. Həmçinin ilin birinci rübündə Zaqatala şəhərində, Göyəm, Kebeloba, Çobankol kəndlərinin hər birində 1 ədəd olmaqla cəmi 5 ədəd subartezian quyusu təmir olunmuşdur. Bundan başqa, cari ildə 6 kəndin 2101 hektar sahəsinin suvarılmasına xidmət edən iki pilləli "Alazan" nasos stansiyasının suvarma şəbəkəsinin təmir edilməsi nəzərdə tutulmuşdur.



2015-ci ildə rayonun Bəhmətli, Mosul, Aşağı Tala, Əli Bayramlı, Muğanlı, Faldarlı, Qandax, Kəpənəkçi, Qımır, Muxax, Lahıc, Yuxarı Çardaxlar kəndlərində subartezian quyularının qazılması da planlaşdırılmışdır.

Rayonun şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin qazlaşdırılması davam etdirilmişdir. Şəhər ərazisində abonentlərin qaz təchizatının yaxşılaşdırılması məqsədi ilə yeni qaz təmizləyici məntəqələr quraşdırılmış, yeni sayğaclarla əvəz olunma davam etdirilmişdir. Əliabad qəsəbəsinə təbii qazın verilməsi təmin edilmiş, hazırda podratçı təşkilatlar tərəfindən rayonun Mosul, Yengiyan, Makov, Aşağı Çardaxlı və Car kəndlərinə daşıyıcı qaz xətlərinin çəkilişi davam etdirilir.

Əhaliyə poçt və rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlər aparılmış, internet və multimediya xidmətləri genişləndirilmişdir.

Rayonumuzda əhaliyə göstərilən səhiyyə xidmətinə qayğı da ön plandadır. Rayon mərkəzi xəstəxanası, həmçinin şəhərimizdəki rayonlararası müalicə diaqnostika mərkəzi bu sahədə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Son illər rayonda səhiyyənin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi istiqamətində də xeyli işlər görülmüşdür. Ayrı-ayrı kəndlərimizdə tibb məntəqələri tikilib istifadəyə verilmişdir.

Böyük Vətən Müharibəsində, həmçinin Qarabağ savaşında həlak olanların ailələri, Çernobıl qəzası iştirakçılarının, şəhid ailələrinin sosial problemləri də daim gündəmdədir. Onların kommunal xidmətləri, bəzi hallarda maliyyə çətinlikləri barədə problemlərinin hər birinə həssaslıqla yanaşılır. Rayon icra hakimiyyətində, həmçinin, yerlərdə keçirilən səyyar qəbullar bu sahədə çox köməyimizə gəlir, əhali ilə icra orqanlarının əlaqələrini daha da möhkəmləndirir.



**Rasim AMANOV,**
**"Respublika".**